

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 107 (23.018)

7 iyun 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyeni qəbul edib.

David Lappartyen velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatında iştirak etmək üçün Azərbaycana gəlməsindən məmnunluğunu ifadə edib. O, bu tədbirin mühüm beynəlxalq idman yarışı olduğunu vurğulayaraq 43 ölkədən 1500-dən artıq idmançının iştirak etdiyini bildirib.

Dövlətimizin başçısı Bakıda keçirilən velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının önəminə toxunaraq Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyenə Azərbaycanda velosiped idman növünün inkişafına verdiyi dəstəyə görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev qeyd edib ki, velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi ölkəmizdə bu idman növünə marağın artmasına və ümumilikdə, idmanın inkişafına təkan verir.

Söhbət zamanı Azərbaycanda idmanın sürətli inkişafı, ölkəmizdə müxtəlif idman növləri üzrə ən müasir infrastrukturun yaradıldığı məmnunluqla qeyd olunub, Azərbaycanda keçirilən mühüm idman tədbirlərinin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi vurğulanıb.



## Rəqəmsal ödənişlərin istifadəsinin genişləndirilməsi istiqamətində tədbirlərə start verilib



Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nə əsasən verilmiş tapşırıqların icrası məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən ölkə ərazisində nağdsız ödənişlərin genişləndirilməsi, xüsusən də regionlarda əhali və təsərrüfat subyektləri arasında müasir bank texnologiyalarından istifadənin artırılması üçün maarifləndirmə, təbliğat və təşviqat işlərinin aparılmasına xüsusi diqqət yetirilir. Bu istiqamətdə növbəti belə tədbir qlobal ödəniş texnologiyalarının lideri olan "Mastercard" ilə birlikdə pilot bölgə olaraq seçilmiş Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödənişlərin istifadəsinin stimullaşdırılması məqsədilə istehlakçılar və təsərrüfat subyektləri üçün kampaniyaların təşkil edilməsidir.

Naxçıvan şəhərində keçirilən belə kampaniyaların təqdimatı üzrə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində təşkil olunan tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Səbuhi Məmmədov son illər ərzində muxtar respublika rəhbərinin tapşırığına əsasən nağdsız ödənişlərin genişləndirilməsi istiqamətində görülmüş işlər barədə geniş məlumat verib. O qeyd edib ki, nağdsız ödəniş infrastrukturunun genişləndirilməsi, inkişaf etdirilməsi və hesablaşmaların həcminin artırılması muxtar respublikada daim diqqət mərkəzində olub, ötən dövr ərzində bu istiqamətdə iki dövlət proqramı təsdiq olunaraq icra edilib. 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması" üzrə Tədbirlər Planına və "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq nağdsız ödənişlərin miqyasının genişləndirilməsi üçün müvafiq tədbirlər həyata keçirilib.

"Görülmüş tədbirlər çərçivəsində banklar tərəfindən Naxçıvan şəhəri, rayonlar və kənd mərkəzlərində POS-terminalların quraşdırılması işi davam etdirilib, onların sayı 1 may 2018-ci il tarixə 1266 ədədə çatdırılıb", – deyən maliyyə naziri bildirib ki, əhalinin nağdsız ödənişlərə marağının artırılması məqsədilə Vergilər Nazirliyinin dəstəyi ilə müxtəlif mükafatlandırma tədbirləri keçirilib. Bu tədbirlərdə nağdsız ödənişə üstünlük verən 1537 nəfər muxtar respublika sakininə 100 min manat dəyərində müxtəlif hədiyyələr paylanılıb. Təkcə 2017-ci il ərzində 481 şəxsə 30 min manat dəyərində hədiyyələr verilib. Aparılan işlərin uğurlu nəticəsi olaraq nağdsız ödəniş dövriyyəsi illər üzrə dinamik şəkildə artaraq 2014-cü ildə 12 milyon 512 min, 2015-ci ildə 18 milyon 874 min, 2016-cı ildə 27 milyon 701 min, 2017-ci ildə 30 milyon 798 min və 2018-ci ilin ilk 4 ayı ərzində 12 milyon 223 min manat olub. Hazırda aylıq ödəniş dövriyyəsi orta hesabla 3 milyon manat təşkil edir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Mərkəzi Banku sədrinin birinci müavini Alim Quliyev "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi" ilə Mərkəzi Banka verilmiş rəqəmsal ödənişlərin daha geniş tətbiqi istiqamətində görülən işlər barədə məlumat verib. O, "Mastercard" beynəlxalq kart təşkilatı ilə birgə ölkədə rəqəmsal ödənişlərin inkişafı üçün institusional mühitin yaxşılaşdırılması, iqtisadiyyatda nağd pul dövriyyəsinin azaldılması və nağdsız ödənişlərin genişləndirilməsi istiqamətində ötən il ərzində həyata keçirilmiş "Nağdsız Azərbaycan" layihəsi barəsində danışaraq qeyd edib ki, bu layihə, bütövlükdə, "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan işləri əhatə edir.

Alim Quliyev verilmiş tapşırığın icrası çərçivəsində hesablaşma əməliyyatlarının vəsaiti ödəyənlə vəsaiti alan arasında 5-10 saniyə ərzində tam başa çatdırılmasını təmin edən Ani Ödənişlər Sisteminin yaradılması üzrə Mərkəzi Bank tərəfindən görülən işlər barədə də məlumat verib. Belə ki, sistemin yaradılması ilə ödəniş xidmətlərinin fiziki və hüquqi şəxslər üçün hər yerdə, hər zaman əlçatan olmasına və əməliyyatların 24/7/365 rejimində ödənişlərin həyata keçirildiyi anda başa çatdırılmasına nail olunacaqdır.

"Mastercard"ın Azərbaycan üzrə meneceri Erdem Çakar yerli bazarda uzunmüddətli əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə bu kampaniyanı Naxçıvan Muxtar Respublikasında həyata keçirməkdən qürur duyduqlarını vurğulayıb. O, çıxışında Azərbaycanı nağdsız ödəniş sahəsində regionun lideri və "Mastercard"ın ən mütərəqqi texnologiyalarını tətbiq edən ilk ölkə kimi görmək istədiklərini qeyd edib. Son layihələri arasında əsas yeri "Mastercard" və Mərkəzi Bank tərəfindən birgə hazırlanan, ölkədə nağdsız transformasiya strategiyasının yaradılmasına yönələn "Nağdsız Azərbaycan" layihəsinin tutduğunu bildirib.

Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonra layihə çərçivəsində 28 may-28 iyun 2018-ci il tarixləri üçün "Cahan" AVM-də təşkil olunmuş hədiyyə kampaniyasının da tanıtımı olub. Kampaniyaya əsasən "Mastercard"la buradan 30 manat məbləğində alış-veriş edən hər bir alıcı ödəniş qəbzini Müştəri Xidmətləri masasına təqdim etməklə müxtəlif hədiyyələrə sahib ola bilər.

✍ Əli CABBAROV

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya may ayında dövlət qulluğuna qəbulla bağlı müsabiqə keçirmişdir.*

## Qanunvericiliyin tətbiqi diqqətdə saxlanılır

Müsabiqəyə 36 dövlət orqanından 294 vakant vəzifə çıxarılmış, həmin vəzifələrin tutulması üçün 395 nəfər sənəd təqdim etmişdir. 1-15 may 2018-ci il tarixlərdə test imtahanları mərhələsində 370 namizəd iştirak etmiş, imtahanlarda keçid balını toplamış 136 namizəd müsahibə mərhələsində iştirak etmək hüququ qazanmışdır.

Komissiya tərəfindən Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyində vakant vəzifələrin tutulması üçün də test imtahanları keçirilmişdir. Mayın 17-də keçirilən test imtahanında iştirak edən 26 namizəddən 9-u imtahanlarda müvafiq keçid balını toplayaraq müsahibə mərhələsinə buraxılmışdır. Həmçinin komissiya müvafiq dövlət orqanlarının müraciətləri əsasında vakant şöbə müdiri vəzifələrinin tutulması üçün 2 nəfərin iştirakı ilə test imtahanı keçirmişdir.

Dövlət qulluğuna qəbul olmaq istəyən 17 namizədin və dövlət ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün 34 namizədin iştirakı ilə hazırlıq kursları təşkil edilmişdir.

Ehtiyat kadrlarla işin təşkili də diqqətdə saxlanılmış, ehtiyat kadrlar siyahısında olan 13 namizəddən 4-ü vakant vəzifələrə təyin olunmuşdur. May ayında Dövlət qulluğuna qəbul üzrə qeydiyyat üçün müraciət və sənədlərin qəbulu istiqamətində daxil olan 409 elektron müraciət komissiya tərəfindən icra olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Yerli istehsal məhsulları "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqosu ilə bəzədilmiş hədiyyəlik qutularda satışa çıxarılacaq



Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olması ilə bağlı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinə verilmiş tapşırıqların icrası istiqamətində muxtar respublikada fəaliyyət göstərən "Ləzzət Qida Sənaye" MMC-nin, Babək "Sirab" ASC-nin və Ordubad "Qənnadı Məmulatları" MMC-nin istehsal etdiyi məhsullar üzərində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqosu olan hədiyyəlik qutularda satışa çıxarılacaq. Bu isə şübhəsiz, Naxçıvana gələn qonaqlar və yerli alıcılarda rəğbət doğuracaq.

"Ləzzət Qida Sənaye" MMC-nin istehsalı olan və üzərində Naxçıvanın simvolları əks edilmiş kakaolu kokos kremli vafli, rahat lokum, peçenye, habelə qarışıq çərəz, qovurulmuş fıstıq və qarğıdalı çubuqlarından ibarət hədiyyəlik çanta yüksək zövqlə dizayn olunub. Şəhərimizin mağaza və marketlərində geniş alıcı kütləsi qazanan bu məhsullar Naxçıvandan hədiyyə ilə geri qayıtmaq istəyən turistlər üçün çox yaxşı seçimdir. Eləcə də Babək "Sirab" ASC-nin istehsalı olan 0,33 litr qazsız, 0,5 litr qazlı şüşə qablara doldurulmuş "Sirab" suyu və üzərində "Sirab" loqolu stəkandan ibarət olan hədiyyəlik çanta min bir dərdin dərmanı olan Naxçıvanın mineral sularının daha geniş tanıdılması baxımından maraqlı kompozisiyadır.

Muxtar respublikamıza xas yerli məhsulların istehsalı sahəsində uğurlu fəaliyyət göstərən digər müəssisə olan Ordubad "Qənnadı Məmulatları" MMC-nin "Ordubad nemətləri" əmtəə nişanı ilə satışa çıxarılan məhsullarının "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqosu ilə dizayn olunmuş hədiyyəlik çantalarda alıcılara təklif olunması bu müəssisənin istehsal etdiyi məhsulların daha həvəslə alınmasına imkan yaradıb. Müəssisənin Naxçıvan şəhərindəki satış mağazasında bildirdilər ki, burada "Ordubad nemətləri" əmtəə nişanlı mürəbbə, bəkməz, kompot və digər məhsullara tələbat böyükdür. Hədiyyəlik çantalarda qablaşdırılmış 500 qramlıq şüşə qablarda satışa verilən ərik, tut, cəviz, qızılgül mürəbbələri dəsti maraqla qarşılanıb. Artıq 500-dən çox belə hədiyyə dəstlərinin satıldığını və qarşıdakı dövrdə tələbatın artacağını da öyrəndik. Qeyd edək ki, adıçəkilən bütün məhsulları şəhərimizin ticarət şəbəkələrindən almaq mümkündür.

**Xəbərlər şöbəsi**

***Bütün müsəlman dünyasını əhatə edən İslam mədəniyyətinin paytaxtı layihəsi çox genişmiqyaslıdır. İslami dəyərlərə və mədəniyyətlərarası dialoqa verdiyi töhfələrlə əlaqədar hər il İslam ölkələri şəhərlərindən birinin paytaxt seçilməsi ənənəsi çox da qədim tarixə malik deyildir. Bu məsələ ilə əlaqədar qərar İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO-nun) təklifi ilə 2001-ci ilin sonlarında Qətərin paytaxtı Doha şəhərində İslam ölkələri mədəniyyət nazirlərinin III konfransında qəbul olunmuş və ilk dəfə olaraq belə bir şəhər 2005-ci ildə İslam dünyasının mərkəzi sayılan Məkkə şəhəri seçilmişdir. Bundan 4 il sonra – 2009-cu ildə isə bu hüquq Azərbaycanın paytaxtı Bakı şəhərinə verilmişdir. Şübhəsiz ki, fəaliyyətə başlamasından 4 il sonra dünyanın inkişaf etmiş İslam ölkələrinin böyük şəhərlərinin deyil, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın paytaxtı Bakı şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ölkəmizdə islami dəyərlərə və mədəniyyətlərarası dialoqa verilən töhfələrlə əlaqədardır.***

# Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsini şərtləndirən amillər

Məlumdur ki, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən VI konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmuşdur. Əlbəttə, bu qərar heç də təsadüfən, birdən-birə qəbul edilməmişdir. Sözsüz ki, Naxçıvan şəhərinə belə bir statusun verilməsini şərtləndirən bir sıra amillər olmuşdur. Bütün bu amilləri, bu qərarın hansı səbəbdən verilməsini aydınlaşdırmaq üçün İslam mədəniyyətinin yaranmasına, Naxçıvan şəhərinin keçdiyi tarixi inkişaf yoluna, ərazidəki tarix-mədəniyyət abidələrinə, onların qorunması, bərpası, tədqiqi və təbliği vəziyyətinə nəzər yetirmək lazımdır.

VII əsrin əvvəllərində tarix səhnəsinə çıxan İslam dini qısa müddət ərzində bir sıra ölkələrdə yayıldı, nəticədə, Xilafət dövləti yarandı. Bununla da, onun tərkibinə daxil olan müxtəlif xalqların mədəniyyətlərini özündə birləşdirən İslam mədəniyyəti formalaşdı. VII yüzilliyin ortalarından etibarən Azərbaycan əhalisi də İslam dinini qəbul etdi. Beləliklə, Azərbaycan çox geniş əraziləri əhatə edən Xilafətin tərkibinə daxil oldu. Bununla əlaqədar xalqımızın həmin vaxtadək minilliklər boyu əldə etdiyi bütün elmi-mədəni nailiyyətlər də Xilafətin yaranması ilə formalaşan və dünya mədəniyyəti tarixində dərin iz buraxan ümumislam mədəniyyəti xəzinəsinə daxil oldu və onun tərkib hissəsinə çevrildi. Bundan sonra Azərbaycanda əldə olunan mədəni-elmi nailiyyətlər həm də islami mahiyyət kəsb etməyə başladı.

Xilafətin tərkibində olduğu müddətdə Yaxın və Orta Şərqin inkişaf etmiş mədəniyyət mərkəzləri ilə yaradılan və tədricən inkişaf etdirilən qarşılıqlı əlaqələr və münasibətlər Azərbaycanda mədəniyyətin tərəqqisinə çox müsbət təsir göstərdi. Ona görə də orta əsr Azərbaycanının ictimai-siyasi və mədəni həyatında baş verən bütün hadisələrdə və dəyişikliklərdə, əldə olunan nailiyyətlərdə İslam ideologiyasının təsiri vardır. Buna görə də, bütövlükdə, orta əsr Azərbaycan mədəniyyətini, o cümlədən elmini, təhsilini, ədəbiyyatını İslam dinindən ayrı təsəvvür etmək olmaz.

2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilən Naxçıvan şəhəri çox böyük inkişaf yolu keçmişdir. Son tədqiqatlara görə, əsası bir yaşayış məskəni kimi eramızdan əvvəl V minilliyin əvvəlində qoyulan Naxçıvan, təxminən, 5 min il bundan əvvəl şəhər kimi formalaşmışdır. Naxçıvan şəhəri, bütövlükdə, Naxçıvan ərazisi bir sıra mədəniyyətlərin, o cümlədən Eneolit, Boyalı qablar və Kür-Araz mədəniyyətlərinin yarandığı və ətraf yerlərə yayıldığı bir mərkəzə çevrilmişdir. İlk orta əsrlər dövründə Naxçıvan şəhəri mühüm bir inzibati-siyasi mərkəz kimi də diqqəti cəlb edirdi. Ərəblərin buraya gəlişindən sonra da şəhər üstünlüyünü saxlamış, bu səbəbdən də ərəblər ətraf əraziləri idarə etmək üçün Naxçıvan şəhərini özləri üçün hərbi-inzibati mərkəz seçmişdilər.

Naxçıvan şəhəri, həmçinin bütün Naxçıvan ərazisi islamlaşmadan sonra, xüsusilə islamın intibah dövründə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamış, ticarət-iqtisadi cəhətdən xeyli inkişaf etmişdir. Hətta şəhər X-XI əsrlərdə "Naxçıvanşahlıq" adlı kiçik feodal dövlətinin, az sonra – 1136-cı ildə tarix səhnəsinə çıxan Azərbaycan Atabəyləri kimi nəhəng bir dövlətin paytaxtına, Azərbaycan memarlığının mərkəzlərindən birinə çevrildi. Naxçıvan Azərbaycan mədəniyyəti tarixinə Əcəmi Əbubəkr oğlu Naxçıvani kimi dahi bir memar bəxş etdi. Burada Azərbaycan memarlığının ən möhtəşəm qollarından olan Naxçıvan məktəbi formalaşdı. Şəhərdə və bütün Naxçıvan bölgəsində çoxlu sayda gözəl və möhtəşəm memarlıq abidələri, o cümlədən türbələr, məscidlər, xanəgahlar, mədrəsələr, hamamlar, buzxanalar, mülki binalar və bu qəbildən olan digər abidələr inşa edildi. Naxçıvan şəhərində Yusif Küseyir oğlu, Möminə xatın, Came məscidi, Dövlətxana və digər bu kimi möhtəşəm memarlıq nümunələri yaradıldı. Naxçıvan şəhəri yüksək inkişaf səviyyəsinə çatdı. Buna görə də gözəlliyinə və ehtişamına görə orta əsr müəllifləri onu, obrazlı şəkildə, "Nəqşi-Cahan" ("Dünyanın bəzəyi") adlandırırdılar.

Sonralar bölgənin müxtəlif yerlərində isə Gülüstan türbəsi, Qarabağlar Türbə Kompleksi, Ziya-ül-Mülk körpüsü, Darkənd günbəzi, Əlincəçay xanəgahı, Qeysəriyyə, imamzadələr kimi nadir tarixi abidələr ucaldıldı. Beləliklə, orta əsrlər zamanı sənətkarlarımız tərəfindən Naxçıvanda memarlıq sahəsində çox zəngin bir mədəni irs yaradıldı. Ancaq Azərbaycanın hər yerində olduğu kimi, onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanda da yaranmış bu irsə keçən yüzillikdə biganə və ögey münasibət bəslənilmiş, hətta şəxsiyyətə pərəstiş illərində onların bir qismi qəsdən dağıdılmışdır.



Azərbaycan öz müstəqilliyini bərpa etdikdən, xüsusilə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra xalqımızın uzun əsrlərdən bəri yaratdığı milli və mənəvi dəyərlərə, mədəni irsə dövlət səviyyəsində diqqət və qayğı artırıldı, onların bərpası, tədqiqi və təbliği sahəsində məqsədyönlü tədbirlər həyata keçirilməyə başladı. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında da çox böyük işlər görülmüşdür. Belə tədbirlər içərisində, ilk növbədə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2005-ci il 6 dekabr tarixdə imzaladığı Sərəncama əsasən qədim diyarımızın tarix-mədəniyyət abidələrinin qeydə alınaraq pasportlaşdırılmasını vurğulamaq lazımdır.

Böyük bir qismi Azərbaycanda İslamın qəbul edilməsindən sonrakı vaxtlara aid olan bu abidələrin çoxu yarandıqları vaxtdan keçən müddət ərzində təbii qüvvələrin təsirindən güclü şəkildə aşınmış, zəmanəmizə yarımdağılmış vəziyyətdə gəlib çatmışdır. Ona görə də Ali Məclis Sədrinin diqqət və qayğısı ilə çoxlu sayda müxtəlif təyinatlı tarix-mədəniyyət abidəsi bərpa olunaraq əvvəlki görkəminə salınmış, onlara yeni həyat verilmiş, tədqiqi və təbliği sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bu abidələrin əksəriyyəti məscidlər, imamzadələr, xanəgahlar, türbələr və İslamla sıx əlaqədar olan digər abidələrdir. Bu istiqamətdə işlər bu gün də sistemli şəkildə davam etdirilir. Qeyd etmək kifayətdir ki, təkcə 2016-cı ildə Ali Məclis Sədrinin 2014-cü il 11 fevral və 2015-ci il 8 oktyabr tarixlərində imzaladığı sərəncamlar əsasında Azərbaycan xalqının məğlubedilməzlik rəmzi olan Culfa rayonundakı Əlincəqalada və XII əsr Azərbaycan memarlığının təkrarolunmaz nümunələrindən sayılan Gülüstan türbəsində bərpa işləri yüksək səviyyədə başa çatdırılmışdır. Ali Məclis Sədrinin 2016-cı il 4 iyul tarixli Sərəncamına əsasən Kəngərli rayonundakı XII-XIV yüzilliklərə aid olan Qarabağlar Türbə Kompleksində başlanılan bərpa işləri tamamlanmaqdadır. 2016-2018-ci illərdə Şərur rayonunun Xanlıqlar (Parçı) kəndindəki imamzadə, Naxçıvan şəhərindəki İmamzadə kompleksi və Babək rayonunun Nehrəm kəndindəki İmamzadə bərpa olunmuşdur. Hazırda Şərur rayonunun Yengicə kəndindəki hamamda bərpa işləri tamamlanmaq üzrədir.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasında tarix-mədəniyyət abidələrinin qorunması, bərpası, tədqiqi və təbliği çox yüksək səviyyədə həll olunmuşdur. Son illərdə muxtar respublikada bir sıra yaşayış məskənlərində mövcud olan məscidlər və ziyarətgahlar əvvəlki tarixi görkəminə qaytarılmışdır. Bir sıra kəndlərdə dini ibadətgahlar tikilərək istifadəyə verilmişdir. Babək rayonunun Nehrəm kəndindəki məscid bunun ifadəsidir. Bu gün muxtar respublikada 209 məscid fəaliyyət göstərir. Bu məscidlərdən 72-si yeni tikilmişdir. 95 məscid və 23 pir isə yenidən qurulmuş və ya bərpa olunmuşdur.

Hazırda Naxçıvan şəhərinin cənub tərəfində "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin və Nuh Peyğəmbərin məzarüstü türbəsinin yaxınlığında böyük məscid binası inşa olunmaqdadır. İbadət zalından, 40 metrlik iki minarədən, qızlar və oğlanlar üçün iki mədrəsədən, kitabxanadan ibarət olan 15 günbəzli məsciddə eyni zamanda 2000 nəfərin ibadət edə biləcəkdir. Muxtar respublikada bu istiqamətdə keçirilən belə tədbirlər isə dünyanın müxtəlif yerlərindən, o cümlədən müsəlman ölkələrindən qədim diyarımıza gələn alimlərin, turistlərin, dövlət nümayəndələrinin və başqa insanların diqqətindən yayınmır. Şübhəsiz ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsində sadalanan bu amillər nəzərə alınmışdır.







Ancaq qeyd olunan bütün bu faktlar Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı olması üçün kifayət etməzdi. Əgər Naxçıvanda müasir infrastruktur yaradılmasaydı, o, paytaxt ola bilməzdi. Çünki İslam Mədəniyyətinin Paytaxtı seçilən şəhərlərə dünyanın 50-dən artıq ölkəsindən müxtəlif təbəqəyə mənsub çoxlu qonaqlar gəlir. Həmin qonaqların yerləşdirilməsi üçün müasir tələblərə cavab verən, dünya standartlarına uyğun otellərin, başqa məişət obyektlərinin olması çox vacibdir.

Məlumdur ki, İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) təklifi ilə İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirlərinin 2004-cü il dekabrın 15-17-də Əlcəzairdə keçirilmiş IV konfransında təsdiqlənmiş "İslam mədəniyyətinin paytaxtları" proqramına əsasən hər hansı bir şəhərin İslam Mədəniyyətinin Paytaxtı elan olunması üçün həmin şəhər bir sıra keyfiyyətlərə malik olmalıdır. Belə ki, həmin paytaxt ölkə və region səviyyəsində mühüm tarixi keçmişə, İslam və bəşər mədəniyyətində elm, incəsənət, ədəbiyyat sahəsində töhfələrə, elmi-tədqiqat, arxeoloji təhsil mərkəzlərinə, fərdi və kollektiv şəkildə mədəni tədbirlər təşkil edən qurumlara malik olmalıdır. Naxçıvan şəhəri isə bütün bu tələblərə cavab verir. Fikrimizcə, şəhərin İslam Mədəniyyətinin Paytaxtı seçilməsində son illərdə Naxçıvanda reallaşan mühüm əhəmiyyətli beynəlxalq tədbirlərin, burada dövlət başçılarının görüşlərinin təşkili və bu sahədə qazanılan təcrübə də öz müsbət təsirini göstərmişdir.

Məhz bütün bunlara görə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən VI konfransında Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar qərar qəbul edilməsi çox təbii görünür. Bununla əlaqədar yaradılmış Təşkilat Komitəsinin 25 noyabr 2016-cı ildə keçirilən ilk iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Təşkilat Komitəsinin sədri cənab Vasif Talıbov demişdir: ***"Bu qərar əsaslıdır. Ona görə ki, Azərbaycanın 5 min illik tarixə malik qədim şəhəri olan Naxçıvan islam mədəniyyəti nümunələri ilə zəngindir və bəşər sivilizasiyasına dəyərli töhfələr vermişdir".***

*Öz qədimliyi və müasirliyi ilə İslam mədəniyyəti paytaxtları üçün tələb olunan qayda və prinsiplərə cavab verən, dini, milli və etnik tolerantlıq ənənələri ilə seçilən, həmçinin artıq bir sıra beynəlxalq miqyaslı möhtəşəm tədbirlərə ev sahibliyi edən və bu sahədə böyük təcrübə qazanan Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı kimi burada keçirilməsi nəzərdə tutulan tədbirlərin yüksək səviyyədə gerçəkləşəcəyinə əminlik yaradır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "**Bu gözəl hadisə ilə bağlı təntənəli tədbirlər keçiriləcəkdir, çoxlu qonaqlar gələcəklər, bir daha görəcəklər ki, dünyada belə gözəl məkan var. Gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi, gözəl insanları olan gözəl məkan var – bu məkanın adı Naxçıvandır".***

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

## Təhsilin səviyyəsinin yüksəldilməsində başlıca amillərdən biri: ixtisaslı kadr hazırlığı

### *Naxçıvan Müəllimlər İnstitutu bu vəzifənin öhdəsindən layiqincə gəlir*



***Muxtar respublikamızda təhsilin bütün pillələri hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Son illər qədim diyarımızın ayrılmaz tərkib hissəsinə çevrilən tikinti-quruculuq tədbirlərinin bu sahəni də əhatə etməsi, təhsildə mütərəqqi metodların tətbiq olunması, tədris ocaqlarının müasir texnoloji avadanlıqlarla təchizatı istər orta, istərsə də ali təhsil ocaqlarında böyük uğurların qazanılmasına imkan verib. Muxtar respublikanın paytaxt şəhəri Naxçıvanda 18 il bundan əvvəl fəaliyyətə başlayan Naxçıvan Müəllimlər İnstitutunun da əldə olunan nailiyyətlərdə payı var. Qeyd edək ki, bu institutun digər ali təhsil ocaqlarından fərqi bu tədris ocağının pedaqoji kadr hazırlığı ilə məşğul olmasıdır. Ali təhsil ocağı fəaliyyət göstərdiyi dövrdə təkcə muxtar respublikamız üçün deyil, həm də ölkəmizin digər bölgələrinin müəllim kadrlarına olan ehtiyaclarının ödənilməsinə öz töhfəsini verib.***

May ayının 16-sı təhsil tariximizdə yaddaqalan bir hadisəyə çevrildi. Ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə institutun yenidən qurulmuş binası istifadəyə verildi. Məlumat üçün bildirək ki, altı mərtəbədən ibarət olan bu ali təhsil ocağında, ümumilikdə, 43 auditoriya, o cümlədən 4 kompüter otağı, 16 elektron lövhəli auditoriya, kitabxana, eləcə də elektron oxu zalları, rəngkarlıq və heykəltəraşlıq emalatxanaları və bir sıra fənn kabinələri üçün tədris fondları müəllim və şagirdlərin ixtiyarına verilib. Təsviri incəsənət, coğrafiya, musiqi, mülki müdafiə, tibb, Azərbaycan dili, ali riyaziyyat və informatika, həyat bilgisi, anatomiya və digər fənn kabinələri tələbələrin biliklərinin artırılması üçün bütün zəruri inventarla təchiz edilib. Fənn kabinələrinin sayı 15-dir. Binada Azərbaycan ali təhsil sistemində ilk dəfə olaraq professor-müəllim heyəti üçün 3 fərdi məsləhət otağı və psixoloji xidmət laboratoriyası yaradılıb. Müəllim və tələbələr ayrıca bufetlərdən istifadə etmək imkanı qazanıblar. Tələbələrin ixtiyarına verilən idman zalında müasir qurğular quraşdırılıb. Binada 132 və 20 yerlik iclas zalları da var. Bu zallarda təhsil müəssisəsinin həyatında baş verən əlamətdar hadisələrlə bağlı müxtəlif tədbirlər keçirmək mümkündür. Yeni tədris korpusunda tələbə və müəllimlərin istifadəsinə, ümumilikdə, 146 dəst fərdi kompüter, 16 dəst noutbuk və proyektorlar verilib.

İnstitutun professor-müəllim və tələbə heyəti hələ də yeni binanın sevincini yaşamaqdadır. Bu günlərdə həmin təhsil ocağına üz tutduq. Burada çalışan müəllimlər və təhsil alan tələbələrlə görüşdük. İnstitutun tarixinə qısa nəzər saldıq.

Ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Oruc Həsənli bildirdi ki, Azərbaycanda ali təhsilin inkişafına ciddi önəm verilir. Dövlət başçısı cənab İlham Əliyev ali təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə əhəmiyyətli tədbirlər həyata keçirir. Ölkədə mövcud olan ali məktəblərin sırası genişləndirilir. Bu sırada mühüm yer tutan Naxçıvan Müəllimlər İnstitutu fəaliyyəti dövründə ali təhsilli pedaqoji kadrların hazırlanması sahəsində bir sıra nailiyyətlər əldə edib. Ötən dövrdə institut ixtisaslı müəllim kadrları ilə təmin olunub, lazımi tədris şəraiti yaradılıb, maddi-texniki baza gücləndirilib, yeni ixtisaslar açılıb. Bütün bunlar isə muxtar respublikada da ali təhsilin yeni inkişaf mərhələsinin göstəriciləridir.





İnstitutun rektoru ali təhsil ocağının keçdiyi yol barədə ətraflı məlumat verdi. Öyrəndik ki, muxtar respublikanın təhsil xəritəsində özünəməxsus yeri olan Naxçıvan Müəllimlər İnstitutu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2000-ci il 13 iyul tarixli Fərmanı ilə Naxçıvan Politexnik Texnikumunun bazasında Azərbaycan Müəllimlər İnstitutunun filialı kimi fəaliyyətə başlayıb. 17 müəllimin saathesabı dərs demək yolu ilə işləməyə cəlb olunduğu filialda birinci il ibtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə 21 tələbə təhsil alıb.



3 il sonra, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 26 avqust tarixli qərarı ilə filial müstəqil instituta çevrilib. Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsini təmin etmək, ixtisaslı müəllim kadrlarına olan ehtiyacı ödəmək məqsədilə institutda şərait yaradılıb, bu şəraitdən səmərəli istifadə təmin olunub. Hazırda instituta bakalavr səviyyəsi üzrə ibtidai sinif, riyaziyyat və informatika, təsviri incəsənət müəllimliyi, məktəbəqədər təlim və tərbiyə, təhsildə sosial-psixoloji xidmət, kitabxanaçılıq və informasiya, magistr səviyyəsi üzrə ibtidai sinif və riyaziyyat müəllimliyi, pedaqogika nəzəriyyəsi və tarixi olmaqla, 10 ixtisas üzrə kadr hazırlığı aparılır.

Rektorun sözlərinə görə, bu gün institutda mütərəqqi təhsil metodları və informasiya texnologiyaları geniş tətbiq olunur, təhsil Bolonya sistemi üzrə aparılır.

Pedaqoji, Təbiət və incəsənət olmaqla, 2 fakültə və onların nəzdində 6 kafedranın fəaliyyət göstərdiyi institutda 91 nəfərlik professor-müəllim heyəti çalışır. Onlardan bir nəfəri AMEA-nın müxbir üzvü, 9-u elmlər doktoru, 38-i fəlsəfə doktoru, 44-ü isə baş müəllim və müəllimdir. Göründüyü kimi, professor-müəllim heyətinin, bütövlükdə, 51,6 faizi elmi dərəcəli əməkdaşlardır. Ayrılıqda əməkdaşların 10 faizi elmlər doktoru, 41,6 faizi fəlsəfə doktorudur ki, bu da Azərbaycan ali məktəbləri arasında yüksək göstəricilərdən sayılır.

İnstitutda 32 min 240 kitab fonduna malik kitabxana fəaliyyət göstərir.

Ali təhsil ocağının “Xəbərlər” elmi-metodik jurnalı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısına salınıb. Hazırda “Xəbərlər” jurnalı İSSN qrifi ilə nəşr olunur. Bu günədək jurnalın 52 nömrəsi işıq üzü görüb.

Naxçıvan Müəllimlər İnstitutu bir sıra dünya universitetləri ilə elmi əməkdaşlıq edir: ABŞ Riyaziyyatçılar Birliyi, Ukrayna Milli Elmlər Akademiyası Riyaziyyat İnstitutu, Xarkov Universiteti, Ruminiyanın Konstanta Universiteti, Türkiyə Respublikasının Kocaeli, Qars Qafqaz, Kırşehir Ahı Evran, İstanbul Esenyurd və Nişantaşı universitetləri, İngiltərənin London Riyaziyyatçılar Birliyi, Kuzey Kıbrıs Akdeniz Universiteti, Qazaxıstan Respublikasının Almatı Universiteti, Moskva Psixologiya və Pedaqogika Elm Mərkəzi ilə yaradılmış əlaqələr mühüm əhəmiyyət daşıyır. Qarşılıqlı fikir mübadilələri, yeni tədris üsullarının birgə öyrənilməsi, tətbiqi və digər məsələlər ali təhsil müəssisələrinin fəaliyyətinə müsbət təsir göstərir.

Oruc Həsənli bildirdi ki, xarici ölkələrlə elm və təhsil sahəsində əməkdaşlıq məqsədilə Naxçıvan Müəllimlər İnstitutu tərəfindən Türkiyə Respublikasının bir sıra ali təhsil müəssisələri ilə müqavilə və niyyət, həmçinin Mövlana proqramı üzrə protokollar imzalanıb.

Hər il institutda ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilmiş “Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi” mövzusunda elmi-praktik və 2010-cu ildən “Təhsil kurikulumları: praktik tətbiqlər” mövzusunda respublika səviyyəli və “Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar” mövzusunda beynəlxalq konfranslar keçirilir.

Öyrəndik ki, bu günədək professor-müəllim heyətinin 96 monoqrafiyası, 17 dərsliyi, 84 dərs vəsaiti, 301 proqram və metodik vəsaitləri dərc olunub. Dərc olunan 2080 məqalənin 1918-i respublika jurnallarında, 162-si xaricdə, 1065 tezisin 913-ü respublikada, 152-si xaricdə çap edilib.

Naxçıvan Müəllimlər İnstitutu Naxçıvan Dövlət Universiteti, AMEA Naxçıvan Bölməsi, AMEA Riyaziyyat və Mexanika İnstitutu, Azərbaycan Təhsil İnstitutu ilə sıx elmi əlaqələr saxlayır, birlikdə elmi-praktik konfranslar keçirir, görkəmli alimlərlə tələbələrin görüşlərini təşkil edir, onların elmi potensiallarından tədris prosesində geniş istifadə olunur. Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşlarından müqavilə əsasında Naxçıvan Dövlət Universiteti, AMEA Naxçıvan Bölməsi, AMEA Riyaziyyat və Mexanika İnstitutunda doktorant və dissertant kimi elmi fəaliyyətlərini davam etdirənlər də çoxdur.

Fəaliyyətə başladığı vaxtdan bu günə qədər bu ali təhsil ocağını 2500-ə qədər bakalavr, 86 magistr bitirib. Onların işlə təminatı da diqqətdə saxlanılıb.

İnstitut əlavə təhsil və yenidənhazırlanma sahəsində də fəaliyyətini günü-gündən gücləndirir. Muxtar respublikanın ümumtəhsil məktəblərində konfransların təşkili, müəllimlərin təhsildə olan dəyişikliklərlə tanış edilməsi, onların lazımi materiallarla təmin olunması, təkmilləşdirmə kursuna cəlb edilməsi, institutda fənn kurikulumları ilə bağlı konfransların keçirilməsi, metodik materialların müəllimlərə çatdırılması məqsədilə görülən işlər diqqət mərkəzində saxlanılır. Məlumat üçün bildirək ki, son beş ildə 300-ə yaxın ümumtəhsil məktəbinin müəllimlərinə sertifikat verilib, ümumilikdə, məktəblərə 5000 səhifəlik metodik vəsait paylanılıb.

Hər il ali təhsil müəssisələrində informasiya və kommunikasiya texnologiyalarından səmərəli istifadə edilməsi sahəsində Avropa standartlarına uyğun İKT-nin ACDL sillabusu əsasında institut müəllimlərinə, tələbələrə və ümumtəhsil məktəb müəllimlərinə təlimlərin keçirilməsi və beynəlxalq sertifikatların verilməsi nəzərdə tutulur. 2016-cı ildə institut müəllimləri, tələbələri və Naxçıvan Muxtar Respublikası orta məktəb müəllimləri üçün “Elektron lövhə” və informasiya-kommunikasiya texnologiyaları üzrə kurslar təşkil edilib və test imtahanlarından müvəffəq qiymət alanlara sertifikatlar verilib.

Son olaraq onu deyək ki, yeni bina kollektivin məsuliyyət hissini daha da artırıb. Qarşıya qoyulan vəzifələr, yaradılan şərait şərəfli bir işi yerinə yetirən müəllimlərə əlavə stimul verib. Bu da ixtisaslı kadr hazırlığında başlıca amillərdən biridir.

✍ **Muxtar MƏMMƏDOV**

## Elektron poçt üzərindən 280 müraciət qəbul edilib

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən may ayında muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən yaşama, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 20 əcnəbi aşkarlanıb. Onlardan 16-sı barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etmə, 4-ü barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.

Həmçinin miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozan bir vəzifəli şəxsin inzibati məsuliyyətə cəlb edilməsi barəsində cərimə inzibati tənbeh növü tətbiq olunub.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 755 müraciət daxil olub. Bu müraciətlərdən 74-ü əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. May ayında olduğu yer üzrə qeydiyyatla bağlı 681 müraciətin icrası təmin olunub. Həmin müraciətlərdən 280-i elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

## Azərbaycan alimlərinin kitabı “Qızıl medal”a layiq görülüb

*38-ci Beynəlxalq Paris Luvr kitab sərgisində Fransa, Rusiya, Almaniya və digər Avropa ölkələrinin alim, yazar və müəlliflərinin elmi-pedaqoji fəaliyyətlərinin intensivliyini artırmaq, kitab, monoqrafiya, dərslik, metodik vəsait və elektron nəşrlərin elmi paylaşımını gücləndirmək məqsədilə 30 min kitabın sərgisi təşkil olunub.*




AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov, institutun Hidrogeologiya və mineral sular laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədova və Fərəh Heydərovanın həmmüəllifi olduqları “Təbii suların geokimyası və Naxçıvan Muxtar Respublikasında yayılma xüsusiyyətləri” adlı kitab da sərgidə nümayiş etdirilib. Azərbaycanlı alimlərin kitabı Beynəlxalq Paris Luvr kitab sərgisinin “Qızıl medalı” ilə mükafatlandırılıb.

Bundan əlavə, həmin kitab Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində keçirilən V Beynəlxalq Təhsil-2018 sərgisinin diplomuna layiq görülüb, kitabın rus və ingilis dillərində xülasəsi sərginin kataloqunda dərc olunub.

Qeyd edək ki, həmin sərgidə Türkiyə, İran, Rusiya, Monqolustan və Polşanın təhsil nazirləri, YUNESKO-ya üzv ölkələrin nümayəndələri, mindən çox elm və təhsil müəssisəsinin əməkdaşları iştirak ediblər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Qədim xalq sənəti – *keçəçilik*

*Keçəçilik sənəti Azərbaycanda qədim zamanlardan inkişaf edib, hörmə, tikmə, toxumadan fərqli olaraq basma üsulu üzrə ixtisaslaşmış ustalar tərəfindən aparılıb. Onlar güzəm yundan keçə qəlibləri və nəməd hazırlayırdılar. Yaz fəslində yunları qırxılmayan qoyunların nəm yerlərdə yatarkən yunlarının bir-birinə keçərək qəlib şəklinə düşdüyünü görən çobanlar sonralar yunu sabunlu su ilə isladaraq bükməyə, döyəcləməyə başlamış və beləliklə, keçə əldə etmişlər.*



Hələ eramızdan əvvəl VI yüzillikdə tarix səhnəsinə çıxan və ilk türk tayfalarından olan hunlar çadırların üzərini və döşəməni keçə ilə örtərmişlər. Qədim türklər tayfanın yaşlı kişiləri və qonaqlar üçün ayrılmış xüsusi yerləri zəngin naxışlı keçə ilə bəzəyərmişlər. Qadınlar və qızlar isə zamanlarının çoxunu keçə və ondan müxtəlif əşyaları düzəltməklə keçirərmişlər. Xalq arasında keçə hazırlayan ustalar keçəçi, həllac və ya atıcı adlandırılardı. Keçə hazırlanarkən yerinin hamarlığı, genişliyi və rahatlığı da nəzərə alınardı.

Minilliklərboyu məişətimizdə geniş istifadə etdiyimiz keçəçilik sənəti xalçaçılığın digər növləri olan həsir, palaz, kilim, sumax, vərni, şəddə, zili və nəhayət, xovsuz xalça növündən xovlu və süjetli xalça növlərinə qədər uzun bir yol keçmişdir.

Xalqımızın mədəni tarixinə aid çoxsaylı faktlarla zəngin "Kitabi-Dədə Qorqud" dastanında keçə haqqında maraqlı məqamlar yer alıb. Dastanda alaçıqların keçədən tikilməsindən, çobanların bu materialdan yapıncı kimi istifadə etmələrindən, ulu babalarımızın atlarını keçə ilə bəzəmələrindən geniş söhbət açılır. Dastanda deyilir: "Kimin ki oğlu-qızı yox, qara otağa qondurun, qara keçə altına döşəyin, qara qoyun yəxnisindən önünə gətirin".

XI əsrdə yaşamış Mahmud Kaşğarlının "Divani-lüğət-it-türk" əsərində də keçədən danışılır. Əsərdə çadır və köç örtüklərinin keçədən hazırlandığı, onların sıx tikilməsi və güvədən qorunması üçün çırpılması haqqında məlumat verilir.

Keçələr yunun tərkibindən asılı olaraq ağ, qara və qəhvəyi rənglərdə olurdu. Bunların içərisində isə ən qiymətlisi ağ rəngli yundan hazırlanmış keçələr sayılırdı. Bununla yanaşı, qırmızı, yaşıl, mavi, narıncı rənglərə boyanmış bəzəkli keçələr də hazırlanıb. Nəmənd, heybə, yəhərüstü, tərlik və digər əşyaların bəzəkləri, əsasən, zoomorf (dağ keçisi, ceyran, aslan, heyvanların döyüş səhnələri), həndəsi (romb, düzbucaq, üçbucaq), nəbati (budaq, gül-çiçək), kosmoqonik (ay, günəş, ulduz) ornamentlərindən, həmçinin zəncir, qoç buynuzu, qaz ayağı, ürək və sair naxışlardan ibarət olurdu. Keçədən hazırlanmış bu cür əşyaların kənarları isə xalçalarda olduğu kimi yelənlə tikilirdi.

Eramızdan əvvəl V əsrdə yaşamış yunan tarixçisi Herodot sakların başda düz dayanan və keçədən tikilmiş ucu şiş papaq qoyduqları haqqında məlumat vermişdir. Qeyd edək ki, ucu şiş keçə papağı azərbaycanlılar "börk" adlandırırdı. Toplanmış materiallardan məlum olur ki, börk papaqlar yenicə doğulmuş, 3-4 günlük quzu dərisindən hazırlanırdı.

Azərbaycanda, o cümlədən də Naxçıvan bölgəsində qoyunçuluğun geniş yayılması keçəçiliyin bu ərazidə də təşəkkülünə zəmin yaratmışdır. Keçə istehsalı yerli xarakter daşımış, əsasən, keçə və yapıncı istehsalından ibarət olmuşdur.

Naxçıvanda orta əsrlər dövrünə aid olan keçəçilik sənəti nümunələri vardır. Keçəçilik Şahbuz və Şərur rayonlarının kəndlərində tarixən inkişaf etmiş sənət sahələrindəndir.

Babək rayonunun Kərimbəyli kənd sakini, keçəçilik sənəti ilə məşğul olan Həsən Ələsgərovdan vaxtilə aldığımız məlumata görə, keçənin bir çox növləri olmuş, qəlib, baş, rəngli, naxışlı və sair müxtəlifformalı keçələr hazırlanmışdır.

İnsanlar yəhər, dolaq, namazlıq, qundaq, yapıncı kimi keçədən hazırlanmış ləvazimatlardan istifadə etmişlər. Çox böyük əziyyətlə başa gələn keçədən həm yatacaq, həm bürüncək kimi, həm də alaçıqların istiliyini təmin etmək üçün istifadə edirdilər. Alaçıqtipli evlərin üstünü örtmək üçün işlənən keçədən, eyni zamanda geyim (yapıncı, papaq) və döşənəcək kimi də istifadə olunmuşdur. Keçə, həmçinin sərraclıq və alançılıq peşələrində də işlənmişdir.

Alaçığın baş hissəsini tutmaq üçün baş, yanlarını örtmək üçün yan, qabağını örtmək üçün isə qənşər qəliblərdən istifadə edərdilər. Yayda sərinlik yaradan, qışda soyuqdan qoruyan keçədən yaşayış evlərinin döşənməsində, bəzədilməsində, yapıncı, papaq, dolaq, uzunboğaz çəkmə, corab, əba, qapılıq, heybə, çul, çuval, yük heyvanı üçün tərlik, palan, yəhər örtüyü, yük keçəsi hazırlanmasında və digər məişət ehtiyacları üçün də geniş istifadə olunardı.

Araşdırmalardan məlum olur ki, türk tayfaları çobanlar üçün keçədən hazırlanan arxalıqlardan da istifadə ediblər. Başı yağışdan qorumaq üçün həmin arxalıqların arxa hissəsinə papaq şəklində ayrıca keçədən hazırlanmış başlıq da əlavə edilərdi. Çünki keçə üzərinə yağış və qar yağsa da, islanmazdı. Keçələr çöllərdə çobanları əqrəb və ilan kimi zəhərli həşəratlardan da qoruyardı.

Xatırladaq ki, günümüzdə keçədən hazırlanan məmulatlara kənd evlərində az da olsa, rast gəlinir. Həmçinin muzeylərdə keçə nümunələri saxlanılır.

*Hələ ən qədim zamanlardan türklərin, xüsusilə də azərbaycanlıların günlük həyatında çox böyük dəyər qazanmış bu sənət nümunələrinin bu gün də qorunub yaşadılması olduqca əhəmiyyətlidir.*

**Sara HACIYEVA**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumları tərəfindən muxtar respublika ərazisində aparılacaq ot-taxıl biçini kampaniyası dövründə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə bir sıra işlər həyata keçirilib. Hazırda biçin kampaniyasına hazırlıqla bağlı yerlərdə maarifləndirici tədbirlər görülür. Həmçinin biçin dövrü ərzində taxıl sahələrində işləyəcək kənd təsərrüfatı texnikalarına yanğına qarşı baxışlar, onların sürücüləri və mexanizatorları ilə yanğın təhlükəsizliyi qaydaları haqqında izahat işləri aparılıb.***

## Ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi bir daha sahibkarların, torpaq mülkiyyətçilərinin, fermerlərin və kəndlilərin biçin dövrü ərzində aşağıda qeyd olunan yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etmələrini tövsiyə edir.

Mülkiyyət formasından asılı olmayaraq, hər bir təsərrüfat rəhbəri ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək yanğın təhlükəsizliyi qaydalarına əməl etməli, biçində iştirak edən hər bir mexanizator, sürücü kənd təsərrüfatı texnikalarını yanğına qarşı texniki müayinədən keçirməli, müvafiq vasitələrlə təmin etməli və həmin texnikalar bundan sonra işə buraxılmalıdır.

Məhsul yığımına cəlb edilən hər bir şəxs yanğına qarşı təlimat keçməli, əks-təqdirdə, məhsul yığımında iştirak etməyə icazə verilməməlidir.

Məhsul yığımında iştirak edən bütün texnikaların, mühərriklərin atqı boruları qığılcımsöndürənlərlə təmin edilməlidir. Kollektorların birləşmə hissələri və atqı borusunun ara qatları saz vəziyyətdə olmalıdır.

Kənd təsərrüfatı texnikalarının akkumulyatorları işlədicilərdən ayıran açarla təmin edilməli, texnikalardakı elektrik naqilləri etibarlı izolyasiya olunmalı, birləşmələri bərkidilməli, eləcə də sürtünmədən və mexaniki zədələnmədən qorunmalıdır. Naqillər gövdə və onun iti künclərindən keçən yerlərdə rezin və ya plastmas borularla mühafizə olunmalıdır.

Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar şəxs tərəfindən işə salınması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra kombaynların sahələrdə saxlanması, kombaynlarda qablarda əlavə yanacaq və yağlama materiallarının saxlanılması yanğın təhlükəsizliyi baxımından yolverilməzdir.

Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərti ilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən azı 30 metr məsafədə tayalanmalıdır. Taxıl yetişən zaman zəmiləri yanğından qorumaq üçün xüsusi keşikçilər ayrılmalıdır.

Tarla düşərgələrində, taxıl təmizləmə xırmanlarında, ot və küləş tayaları yığılan sahələrdə siqaret çəkmək üçün ayrılmış xüsusi yerlər istisna olmaqla, siqaret çəkmək, açıq oddan istifadə etmək qəti qadağandır.

Taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanmasına yol verilməməlidir. Tarla şəraitində texnikaların yanacaqla təmin edilməsi, onların mühərriklərinin işi dayandırıldıqdan sonra yanacaqdoldurucu maşınlarla yalnız gündüz vaxtı həyata keçirilməlidir.

Taxıl xırmanları bina və tikililərdən 50, taxıl zəmilərindən isə 100 metr aralı məsafədə yerləşdirilməlidir. Xırmanların ətraf sahələri quru otlardan, yanar materiallardan mütləq təmizlənməli, 4 metr enində şumlanmalıdır. Vətəndaşlara, torpaq mülkiyyətçilərinə və sahibkarlara bir daha tövsiyə edirik ki, taxıl biçini başa çatdıqdan sonra biçilmiş sahələrin yandırılması qəti qadağandır.

Taxıl biçini dövründə hər hansı bir yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin **"112"** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin **"101"** xidməti telefonlarına zəng etməyi unutmayın.

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

### Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2018-ci ilin may ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2741 | 202,8 | 202,8 | 100,0 |
| 2. | Şərur rayonu | 1638 | 115,5 | 115,5 | 100,0 |
| 3. | Babək rayonu | 1201 | 85,0 | 85,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 1084 | 76,4 | 76,4 | 100,0 |
| 5. | Culfa rayonu | 892 | 62,9 | 62,9 | 100,0 |
| 6. | Kəngərli rayonu | 417 | 29,4 | 29,4 | 100,0 |
| 7. | Şahbuz rayonu | 330 | 23,3 | 23,3 | 100,0 |
| 8. | Sədərək rayonu | 135 | 9,5 | 9,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 26111 | 2350,0 | 2432,6 | 103,5 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **34549** | **2954,8** | **3037,4** | **102,8** |

**Qeyd:** May ayında texniki itki nəzərə alınmaqla daxil olan 34 milyon 549 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 954 min 800 manat olmuş, cəmi 3 milyon 37 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 102,8 faizini təşkil edir.

### Naxçıvan Muxtar Respublikası üzrə 2018-ci ilin may ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 578126 | 60467 | 60581 | 100,2 |
| 2. | Culfa rayonu | 482058 | 49847 | 49931 | 100,2 |
| 3. | Şahbuz rayonu | 414248 | 43628 | 43691 | 100,1 |
| 4. | Kəngərli rayonu | 361307 | 37178 | 37213 | 100,1 |
| 5. | Babək rayonu | 1003152 | 107259 | 107328 | 100,1 |
| 6. | Şərur rayonu | 862260 | 89678 | 89719 | 100,0 |
| 7. | Sədərək rayonu | 96299 | 9692 | 9694 | 100,0 |
| 8. | Naxçıvan şəhəri | 1132879 | 126660 | 126665 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 8114463 | 1369925 | 1523674 | 111,2 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **13044792** | **1894334** | **2048496** | **108,1** |


**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 420